

# Ordumuz gücünü, qələbə əzmini göstərdi

**General Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Anar Novruzov, mayor Namiq Əhmədov, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, çavuş Vüqar Sadiqov, baş əsgər Elşad Məmmədov, əsgər Elçin Mustafazadə, əsgər Nazim İsmayılov, əsgər Xəyyam Daşdəmirov...**

Bu gün Sizlər və sizin kimi digər qəhrəmanlarımızın sayəsində illərdir doğulduğu, böyüdüyü torpaqlardan məhrum olan insanlarımız bir zamanlar xoşbəxt yaşadıqları məkanları təkrar ziyarət edir, yurd yerlərinə qayıdırlar.

2016-cı il şanlı Aprel döyüşləri, 2018-ci il uğurlu Günnüt əməliyyatı kimi 2020-ci il Tovuz döyüşləri də ordumuzu böyük Qələbəyə doğru aparan döyüşlər oldu. Ölkəmizə qarşı təxribatçı əməllərindən əl çəkməyən Ermənistan ordusunun növbəti diversiyasının qarşısının alınması ilə başlayan beşgünlük iyul döyüşlərində ordumuzun bölmələri düşmənə sarsıdıcı zərbə vuraraq mənfur niyyətinin qarşısını aldı.

Tovuz döyüşləri Vətən müharibəsinə gedən yolun əsas mərhələsi və qələbənin ilk qığılcımlarından idi. Bu gün Azərbaycan hərb tarixinin ən mühüm səhifələrindən biri olan Tovuz döyüşlərindən 4 il ötür. Təcavüzkar Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində mövqelərimizə hücum cəhdi ilə başlayan döyüşlər Qarabağın düşmən işğalından azad olunması ilə başa çatdı. Tovuz döyüşləri Ermənistanın hərbi gücsüzlüyünü və Azərbaycan Ordusu qarşısında məğlub olacağını bir daha göstərdi. Bütün bunlar xalqımızın döyüş ruhunun yüksək olduğunu nümayiş etdirdi. Beləliklə, Tovuz döyüşləri Vətən müharibəsində düşmən üzərində qazanılan böyük Zəfər tarixini yaratdı.

Sözügedən döyüşlərin Azərbaycanın münaqişə zonası olan və Ermənistanın işğalı altındakı Qarabağ bölgəsində deyil, şimalda yerləşən Tovuzda baş verməsi geosiyasi və geostrateji səbəblərdən böyük əhəmiyyət kəsb edirdi.

2016-cı ilin aprelində Qarabağın şərqində Tərtərdən başlayaraq cənubda Füzuliyə qədər baş verən münaqişələr Azərbaycan tərəfinin aşkar üstünlüyü və ərazisini azad etməsi (Lələtəpə yüksəkliyi) ilə nəticələndi. 2018-ci ilin mayında Naxçıvanda baş verən toqquşmalarda Azərbaycan tərəfi yenidən üstünlük əldə edərək öz ərazisini geri qaytardı.

Ordumuzun bu nailiyyətləri Ermənistanı və onun havadarlarını ciddi şəkildə narahat edirdi. Beləliklə, Ermənistan bu tendensiyanın qarşısını almaq və psixoloji üstünlük əldə etmək üçün təxribat xarakterli hücumlar həyata keçirdi. Belə ki, 2020-ci il iyulun 12-də günorta saatlarında Ermənistan ilk olaraq Azərbaycana məxsus kiçik UAZ tipli hərbi avtomobili atəşə tutdu. Bundan sonra Ermənistan artilleriya atəşi ilə hücumunu davam etdirdi.

İyulun 13-nə keçən gecə döyüşlər daha da intensivləşdi. Həmin günü Tovuz istiqamətində ağır artilleriya qurğuları yenidən işə düşdü. Döyüş zamanı Ermənistan artilleriyası toplarla Tovuzun Dondar Quşçu və Ağdam kəndlərini də atəşə tutdu. Artilleriya, minaatan və tankların tətbiqi ilə gecə döyüşləri zamanı bölmələrimizin dəqiq atəşi ilə düşmənin dayaq məntəqəsi, artilleriya qurğuları, avtomobil texnikası və xeyli canlı qüvvəsi məhv edildi.

İyulun 13-də Prezident, Ali Baş Komandan İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. İclasda dövlətimizin başçısı şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyərək artıq Vətən uğrunda canını fəda edən qəhrəman övladlarımızın intiqamının alındığını bildirdi: "Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun yerini göstərəcəyik. Bizim işimiz haqq işidir və Azərbaycan öz prinsipial mövqeyindən bir addım geri atmayacaq". Ölkəmizin başçısı bir daha bəyan etdi ki, Azərbaycan əsla torpaqlarının işğal altında qalması ilə barışmayacaq və bütün vasitələrdən istifadə edərək öz ərazi bütövlüyünü bərpa edəcək. "Ermənistan hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etmək istəyib, mövqelərimizi məhv etmək istəyib, mülki əhalini, kəndlərimizi atəşə tutub" deyən Ali Baş Komandan təcavüzkar Ermənistanın siyasi və hərbi rəhbərliyinə növbəti dəfə xəbərdarlıq edərək bildirdi ki, bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq. Beləliklə, öz çirkin niyyətlərindən əl çəkməyən, təcavüzkarlığını davam etdirən düşmənə qarşı görülən hərbi cəza tədbirləri nəticəsində onun atəş mövqeləri, kəşfiyyat bölməsinin radiolokasiya stansiyası, hərbi avtomobil texnikası üçün saxlanc, müxtəlif təyinatlı hərbi texnika və döyüş vasitələri, komanda məntəqəsi, tabor qərargahı, hərbi infrastrukturu, müdafiənin dərinliyindəki ehtiyatlar və 20 nəfərdən çox canlı qüvvəsi məhv edildi.

Tovuz döyüşləri iyulun 14-də də davam etdi. Belə ki, düşmən səhər saatlarından başlayaraq Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutdu. Düşmənin təxribat xarakterli hücumu nəticəsində Azərbaycan Ordusunun 12 hərbçisi qəhrəmancasına şəhid oldu. Ermənistanın hücumları nəticəsində rayonun Ağdam kənd sakini, 76 yaşlı Əziz Əzizov qətlə yetirildi. Tovuz döyüşləri iyulun 17-də Azərbaycan Ordusunun qələbəsi ilə yekunlaşdı və heç bir ərazi itkisi olmadı. Prezident İlham Əliyevin 2020-ci ilin dekabrın 9-da imzaladığı sərəncamlarla Polad Həşimov və İlqar Mirzəyevə Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Ərazilərimizin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları və şəhidlərimiz ölkə başçısının sərəncamları ilə müxtəlif orden və medallarla təltif olundular.

Tovuzda baş verən toqquşmanın sosial-siyasi əks-sədası yarandı. Bu kontekstdə ilk diqqətəlayiq hadisə Azərbaycan xalqının yüksək reaksiyası və motivasiyası oldu. İyulun 15-dən on minlərlə azərbaycanlı Ermənistanın Azərbaycan ordusunun sərhəd mövqelərinə hücumlarına və şəhidlər verməyimizə etiraz olaraq küçələrə axışdı. Bakı və ətraf şəhərlərdə yaşayan azərbaycanlılar axşam saatlarında paytaxt Bakının küçələrində əllərində Azərbaycan bayraqları ilə "Qarabağ bizimdir və bizim qalacaq", Milli Məclisin qarşısına toplaşan vətəndaşlar səfərbərlik elan edilməsi üçün "Şəhidlər ölməz, vətən bölünməz", "Ali Baş Komandan, silah ver" kimi şüarlar səsləndirdilər.

2020-ci ilin iyul günlərində bütün ölkə vətənpərvərlik, qələbəyə inam hissi ilə yaşayırdı. Bəli, Aprel döyüşləri kimi, bu döyüşlər də xalqımızı həlledici qələbəyə ruhlandırdı, Vətən müharibəsi üçün güclü səbəb yarandı. Həmin günlərdə dövlət-xalq birliyi daha da möhkəmləndi və vahid gücə çevrildi. Növbəti günlərdən başlayaraq, çoxsaylı azərbaycanlı gənc ordu sıralarına yazılmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bölmələrinə müraciət etdi.

Azərbaycan tək bir müharibədə qalib gəlmədi, eyni zamanda "milli kimliyini vurğuladı, özünə inam qazandı" və ən əsası, son otuz ildə Ermənistana qarşı yaşadığı bütün rüsvayçılıqdan xilas olaraq yenidən doğuldu. Bir növ "Qurtuluş savaşı" qazandıq və bununla da ölkə tarixinin gedişatını hər mənada dəyişməklə yanaşı, Azərbaycan xalqını "bir yumruğ"a çevirdi. Çünki Azərbaycan öz ərazi bütövlüyünü bərpa edirdi və xalqımızın buna haqqı çatırdı.

Ulu öndər Heydər Əliyev deyirdi: "Əgər sülh yolu ilə imkan olmasa, yəni yola gəlməsələr, bizim güclü ordumuz var, biz bütün gücümüzü cəmləyib, gedib nə bahasına olur-olsun torpaqlarımızı azad edəcəyik, siz də öz yurdunuza dönəcəksiniz. Mən inanıram, mən tam inanıram ki, hər şey ədalət naminə dəyişəcək bizim bölgədə, Azərbaycan xalqının əzab-əziyyəti onun xeyrinə dəyişəcək və mütləq, mütləq siz gələcəkdə hələ gedib öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı, ata - baba qəbirlərinizi də görəcəksiniz".

Tarixi hadisələrin iştirakçıları bu hadisələrdə iz qoymuş qəhrəmanlardır. Hər hadisənin öz qəhrəmanı var. Tarixi hadisələr qəhrəmanları, qəhrəmanlar da tarixi hadisələri xatırladır. Xocalı faciəsinin Əlif Hacıyevi, Aqil Quliyevi, Tofiq Hüseynovu, Canpolad Rzayevi, Hikmət Nəzərlini, xalqımızın qəhrəmanlıq salnaməsi Aprel döyüşlərinin Murad Mirzəyevi, Samid İmanovu, Qabil Orucəliyevi, Vüqar Yusifovu, Urfan Vəlizadəni, Təbriz Musazadəni, Tovuz döyüşlərinin Polad Həşimovu, İlqar Mirzəyevi, Rəşad Mahmudovu, Xəyyam Daşdəmirovu, Elşad Məmmədovu, Anar Novruzovu, Namiq Əhmədovu, İkinci Qarabağ müharibəsinin Xudayar Yusifzadəni, Cəbrayıl Dövlətzadəni, Muxtar Qasımlını, Elcan Məmmədovu, Rəşad Babayevi, Elmar Əhmədovu, Ruhin Xəlilovu, Elmir Nəcəfovu, İzzət Həmidovu və belə minlərlə qəhrəmanlarımızı xatırlatması kimi...

Dünyada ən müqəddəs duyğu Vətəni özününkü olduğu üçün sevmək, onun qoynunda doğulduğun, havasını aldığın, suyunu içdiyin, torpağının müqəddəsliyini hiss edib yolunda canından keçməyə hazır olmaqdır. Tarixin hansı qəhrəmanlıq səhifəsinə nəzər yetirsək dəyişməyən bir həqiqətin şahidi oluruq. Vətən tarix boyu həmişə müqəddəs sayıldığı üçün uğrunda müharibələr aparılmış, qanlar tökülmüş, canlar qurban verilmişdir. Tarixin qəhrəmanlıq səhifələri, Vətən müharibəsi iştirakçıları, şəhidlərimiz, qazilərimiz gələcək nəsillərə sübut etdilər ki, torpaq müqəddəsdir.

Kiçik bir məqalədə on minlərlə qəhrəmanımızı yada salmaq, yazmaq yəqin ki, mümkünsüzdür... Amma, söhbət Tovuz döyüşlərindən gedirsə, söhbət cəsarətdən, gücdən, birlikdən, vətən üçün can verməyə hər an, hər dəqiqə hazır olmaqdan gedirsə, minlərlə gəncimizə qəhrəman olmaq, döyüşmək, ər meydanına çıxmaq cəsarətini verən, onları bu yolda ruhlandıran, şəhadəti ilə hər bir azərbaycanlının qəlbində Qarabağla bağlı hissləri yenidən canlandıran, çiçəkləndirən, qələbəyə ümidləndirən əbədiyaşar Polad Həşimov və onunla birgə şəhid olmuş döyüş yoldaşları Vətən üçün doğulmuşdular, vətənlərinə xidmət etdilər, canlarından keçdilər...

Tovuz döyüşləri - zəfərə gedən yolun əsas mərhələsi kimi tariximizə qızıl hərflərlə yazıldı.

**Şəlalə QULUZADƏ,**
**Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının baş müəllimi, ədliyyə müşaviri.**